ədalət.- 2020.-11 noyabr.- S.6.



***Adil Məmməd***

# QƏLƏBƏ

Çoxdan paralanan, çoxdan qan olan,
Əzilən, üzülən,yarımcan olan ,
Neçə ildən bəri alışan , yanan
Qəlblərə çilənən sudu Qələbə.

Düşmən aldadanda ərzin parasın,
Xalqım özü tapdı dərdin çarəsin.
Bu ulu millətin alın qarasın
Şəhid qanlarıyla yudu Qələbə.

Düşmən qoyub qaçır bizim elləri,
Kəsirlir,əzilir murdar əlləri,
Yəqin lal olacaq kirli dilləri
Budur üzağlığı, budu Qələbə.

İllərələ sərvəti talanan millət,
Torpağı odlara qalanan millət,
Şuşada bayrağı ucalan millət ,
Gözü dola-dola dedi: Qələbə!